

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 dekabr 2024-cü il №92 (2903) https://mod.gov.az Qiyməti 30 qəpik

## “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda II beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda Bakı şəhərində təşkil etdiyi II beynəlxalq konfransda salamlayıram.

Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşmışdır və beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür.

Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur.

Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və İslam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalmışdır. Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir.

Ermənistan bununla da kifayətlənməmiş, Azərbaycana qarşı hərbi təcavüzə əl ataraq onun ərazilərini işğal etmiş, etnik təmizləmə törətmiş, şəhər və kəndləri dağıtmış, talan etmiş, torpaqlarımızı saysız-hesabsız minalarla çirkləndirmişdir.

Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət Proqramı" uğurla icra edilir.

Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir.

Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir.

Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir.

Müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 dekabr 2024-cü il

## Sədaqət ordususan, Azərbaycan Ordusu!..



***Azərbaycan Ordusu dövlətimizi, dövlətçiliyimizi sədaqətlə qoruyur. Hərbçilərimiz tarixi Zəfərin işığında daha məsuliyyətlə, daha böyük sevgi ilə, daha dönməz sədaqətlə xidmət edirlər; hərbi xidmət Hərbi Andla təsdiqlənən sədaqətdir, sədaqət - vətəndaşlıq borcu. Dövlətin ərazisini, müstəqilliyini (bu toxunulmazlıq deməkdir) onun ordusu qoruyur. Güclü ordu güclü dövlət deməkdir; ordu dövlətin var olma şərtlərinin başlanğıcıdır. Torpağa sərhədlər düşəndən, dövlətlər yaranandan belədir...***

Şah İsmayıl Xətai Səfəvilər dövlətini gücləndirdiyi ordusu ilə qüdrətləndirmişdi. Bu ordu qılıncla (döyüş hazırlığı) sözün (qızılbaşların mənəvi-psixoloji hazırlığı) bir-birini tamlıqla tamamlaması ilə yenilməzləşmişdi. Sərkərdə ordusuna inanırdı, ordu sərkərdəsinə (deməli, dövlətə) sədaqətli idi. Dövrün hərb biliciləri bu sədaqətə dövlətçiliyin mənəvi-psixoloji əsgərləşməsi deyirdilər...

Sonra on illər keçdi, yüz illər keçdi, siyasət 1813-cü il oktyabrın 16-da Gülüstan müqaviləsi ilə Azərbaycan dövlətçiliyini paraladı, "o tay", "bu tay" elədi - Arazın o tayı, Arazın bu tayı. O vaxtlarda ordu dövləti müdafiə etməyə qadir deyildi...

105 ildən sonra Tiflisdə Azərbaycanın dövlət müstəqilliyi ilə bağlı İstiqlal Bəyannaməsi qəbul edildi. Bu Bəyannamədə yeni dövlətin ordusunun yaradılması da nəzərdə tutulurdu. Ordu yaradıldı. Dövlətin, dövlətçiliyin yaşamı üçün düşmənlərlə döyüşdü. Cümhuriyyətin ordusu döyüşə-döyüşə formalaşırdı, formalaşa-formalaşa döyüşürdü. Azərbaycan Ordusunun tərkib hissəsi olan Qafqaz İslam Ordusu Azərbaycan dövlətçiliyini sədaqətlə müdafiə edirdi...

1920-ci il aprelin 28-də imperiya Azərbaycan Demokratik Respublikasını ilhaq etdi, ordunun, hərbi qulluqçuların sədaqətini ilhaq etməyə gücü, qüdrəti çatmadı, çatmazdı. Bu sədaqət xalqın heysiyyətinin sədaqəti idi, milli ruhun sədaqəti idi, dövlətçiliyə sevgisinin sədaqəti idi, bir də tarixin dünənlərinin işığını sabahlara yetirmək uğrunda mübarizə aparacaq mücahidlərə ruh qardaşı olmaq istəyənlərin yoluna işıq olmaq sədaqəti idi, ...

71 il mübarizələrlə ötüşdü. Gizlin mübarizələr dövründə də azərbaycançılıq Azərbaycanın sabahlarını siyasət küləklərindən, tərsə əsən siyasət yellərindən qoruyurdu. Bakıda ibtidai hərbi məktəbin yaradılması, Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəisi vəzifəsinə azərbaycanlı generalın təyin olunması, məktəbə azərbaycanlıların daha çox sayda qəbulunun gerçəkləşdirilməsi, sabiq SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə azərbaycanlı gənclərin göndərilməsi böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin bərpa olunacağı inamına böyük sədaqəti idi.

Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Ordu quruculuğu istiqamətində də böyük islahatlar həyata keçirildi. Yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq yaradıldı, ordunun maddi-texniki bazası gücləndirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksəldildi. Bunlar dövlətə, dövlətçiliyə, dövlət naminə, dövlətçilik naminə orduya böyük sədaqətlə xidmətin təzahürü kimi tarixləşirdi. 1993-cü ilin dekabrında başlayan və 1994-cü il yanvarın 5-də başa çatan Horadiz əməliyyatında qazanılan qələbə ordu quruculuğunda həyata keçirilən tədbirlərin nəticəsi idi; ordu Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin sərkərdəliyi ilə gələcək döyüşlərdə qazanılacaq qələbələrin başlanğıcını müəyyənləşdirdi.

**(Ardı 3-cü səhifədə)**

# NATO nümayəndə heyəti təhsil müəssisələri və hərbi hissədə olub

*"15-ci NATO günləri" tədbiri çərçivəsində ölkəmizə səfəri zamanı NATO-nun Avropa Ali Müttəfiq Qüvvələr komandanlığının (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Gunnstein Bruasdalın rəhbərlik etdiyi nümayəndə heyəti hərbi təhsil müəssisələri və "N" hərbi hissəsini ziyarət edib.*



Müdafiə Nazirliyi xəbər verir ki, NATO nümayəndə heyəti əvvəlcə Heydər Əliyev adına Hərbi İnstitutda olub. Qonaqlara Heydər Əliyev adına Hərbi İnstitutun fəaliyyəti, tədris proqramları və beynəlxalq əməkdaşlıq sahəsində görülən işlər haqqında brifinq təqdim edilib.

Daha sonra Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzi ziyarət edilib.

Burada qonaqlar 2024-cü il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində NATO-nun Brunssumda yerləşən Müştərək Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən keçirilən "Təlim və məşq kursu"nu izləyiblər.

Sonra NATO nümayəndə heyəti Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsini ziyarət edib.

Qonaqlara hərbi hissənin yaranma tarixi və icra olunan fəaliyyətlərlə bağlı brifinq təqdim edilib.

Görüşdə Azərbaycan-NATO əlaqələrinin uğurlu inkişaf yolundan, Azərbaycan Ordusunda aparılan islahatlardan danışılıb, maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Sonda nümayəndə heyəti NATO-nun Əməliyyat İmkanları Konsepsiyası proqramına bəyan edilmiş Dənizdə qadağa əməliyyatları üzrə göyərtəaxtarış qrupunun döyüş hazırlığı üzrə məşğələsini izləyib.







# Bakıda NATO-nun təlim kursu keçirilib







*Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2024-cü il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində NATO-nun Brunssumda yerləşən Müştərək Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən Bakıda "Təlim və məşq kursu" keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində təşkil edilən kursda NATO-da əməliyyat-taktiki səviyyədə təlimlərin planlaşdırılması və icrası prosesinə dair müxtəlif mövzular tədris edilib.

Kursun yekununda yerinə yetirilmiş tapşırıqlar və məqsədlərlə bağlı brifinq təqdim olunub.

Çıxış edənlər Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində bu cür kursların əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, keçirilən kursun əsas məqsədi NATO-da əməliyyat-taktiki səviyyədə təlimlərin planlaşdırılması və icrası prosesini dinləyicilərə aşılamaqdan ibarətdir. Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

# ƏÜO-da komanda-qərargah təlimi keçirilib

*Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) 2024-cü il üçün hazırlıq planına uyğun olaraq, növbəti komanda-qərargah təlimi keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, təlimə cəlb olunan bölmələr "Həyəcan" siqnalı ilə təlim rayonlarına çıxarılıb, onların manevr imkanları, komandirlərin və qərargahların əməliyyat şəraitində idarəetmə bacarıqları yoxlanılıb.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə raket və artilleriya bölmələri şərti düşmənin planlı və plandankənar hədəflərini atəşlə məhv ediblər.

Komanda-qərargah təlimində qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilib.

# Türkiyə Milli Təhlükəsizlik Şurası: Azərbaycan-Ermənistan sülh sazişi regiondakı bütün aktorların marağına uyğundur

Azərbaycan ilə Ermənistan arasındakı uzunmüddətli sülh regiondakı bütün aktorların marağına uyğundur.

AZƏRTAC xəbər verir ki, bu fikir Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Ankarada keçirilmiş Türkiyə Milli Təhlükəsizlik Şurasının iclasının yekunlarına dair bəyanatda öz əksini tapıb.

Sənəddə Bakı-İrəvan danışıqlarında müsbət irəliləyişin sülh sazişi ilə nəticələnəcəyinə dair gözləntilər və arzular ifadə edilib.

İclas zamanı Ukraynadakı son vəziyyətin də müzakirə olunduğu qeyd olunur.

Türkiyə Milli Təhlükəsizlik Şurası bəyan edib ki, Ukraynada müharibənin genişlənməsi tendensiyasının qarşısı alınmalıdır, atəşkəs və ədalətli sülhə nail olunmalıdır.

Bəyanatda Suriyada baş verən son hadisələrə də diqqət çəkilib.

Bildirilir ki, Ankara hər zaman və qətiyyətlə Suriyanın ərazi bütövlüyü və birliyinin qorunub saxlanmasına dəstək verib. "Son hadisələr Bəşər Əsəd rejiminin öz xalqı və müxalifətlə danışıqlar apararaq ümumi fikrə gəlməsinin vacibliyini bir daha ortaya qoyub. Suriyada mülki əhalinin təhlükəsizliyi təmin olunmalıdır", - deyə qeyd edilib.

Türkiyənin milli təhlükəsizliyinə və türk xalqına qarşı hər hansı təhdidin dərhal aradan qaldırılacağı bəyanatda vurğulanıb.

# Sədaqət ordususan, Azərbaycan Ordusu!..

(Əvvəli 1-ci səhifədə)

Bu ordunun dövlətə, dövlətçiliyə sədaqəti idi və İkinci Qarabağ müharibəsində döyüşçülərin döyüş əzmində, qələbə ruhunda bu əməliyyatın da işığı vardı: döyüşçülərdə Aprel döyüşlərində, Horadiz əməliyyatında, İkinci Qarabağ müharibəsində qazanılan qələbələrə sədaqət vardı. Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi fikirlərə sədaqətlə döyüşürdü, Vətənin adından döyüşürdü: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Ali Baş Komandanın orduya inamı ordunun dövlətə, dövlətçiliyə sədaqətini müəyyənləşdirirdi.

Bu sədaqət Vətən müharibəsində Azərbaycan əsgərinin döyüş əzmi idi, qələbə ruhu idi. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun bütün döyüşləri qələbə döyüşləri olmuşdu. Buna gücün işğalla, azərbaycançılığın erməniliklə döyüşləri də deyə bilərik. Bu döyüşlər orduya, ordunun timsalında dövlətə, dövlətçiliyə sədaqət döyüşləri kimi tarixləşdi. Şuşa uğrunda döyüşlər də belə döyüşlər oldu. Şuşa uğrunda gedən döyüşlərdə Xankəndidə olan bir xarici jurnalist yazırdı: "Şuşanı müdafiə edənlər pərən-pərən düşüblər. Hərbi təcili yardım maşınlarında onlarla yaralı qan içində Xankəndi xəstəxanasına daşınır. Qalan döyüşçülər yorğun halda yolboyu hərbi geyimlərini çıxarıb ataraq dağdan enirlər. Təcili yardım maşınları aramsız olaraq gedib-gəlir. Avtomobildə yaralı əsgərlər bir-birinin üstünə qalaqlanıb. Onların aldığı xəsarətlər əlbəyaxa döyüşlərin getdiyinin sübutudur". Xarici jurnalistin Azərbaycan Ordusunun döyüşlərinə, bu döyüşlərin timsalında Azərbaycan dövlətinə sədaqətinə heyranlığı da tarixdi, bu tarix Azərbaycan gerçəkliklərinin tarixidi...



2023-cü il 19-20 sentyabr tarixlərində keçirilən antiterror əməliyyatında bu əzm, bu ruh Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması ilə nəticələndi. Ordunun dövlətə, dövlətçiliyə sədaqəti budur! Azərbaycan Ordusu Azərbaycanın ərazisində işğalı sonlandırdı. Bu sədaqət Azərbaycan Ordusunun Azərbaycan dövlətinə, Azərbaycan dövlətçiliyinə tarixi sədaqətidir!

Dünya gördü ki,

*Bir qüdrət ordusudu,*
*işğalı sonlandıran*
*ədalət ordusudu,*
*başərilik ruhuna*
*sədaqət ordusudu*
*Azərbaycan Ordusu!*

Azərbaycan Ordusu Ermənistanın elan etmədən başladığı ədalətsiz müharibəni ədalətli müharibə ilə sonlandırdı, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Ermənistanın məğlubiyyət, Azərbaycanın qalibiyyət sənədi oldu. Qalib Azərbaycan Ordusu Azərbaycan gerçəkliklərini tarixə görk elədi, sülh imkanlarını gerçəkləşdirdi. Bu, bəşəriliyə xidmətdi; Azərbaycan Ordusu həm də bəşəriliyə sədaqətin ordusudu!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Təlimdə uğurun kökündə ciddi döyüş hazırlığı dayanır

Müasir hərb sənətində artilleriya mühüm döyüş vasitələrindən biri sayılır. Artilleriya qurğularından düşmən qüvvələrini, onun mövqeyini, infrastrukturlarını, hərbi texnikalarını məhv etmək üçün istifadə olunur. Dövrümüzün ən tələbolunan hərbi texnikalarından biri olan artilleriya qurğuları son bir neçə əsrin əsas döyüş vasitələrindən biri olaraq dünya ölkələrinin arsenalında mühüm çəkiyə malikdir. Artilleriyanın döyüşdə əsas funksiyaları nələrdir?! Piyada və ya digər bölmələrin irəliləməsi üçün düşmənin müqavimət nöqtələrini susdurmaq, onun hücumunun qarşısını almaq, komanda məntəqələrini və ya digər strateji əhəmiyyətli obyektlərini məhv etmək; intensiv atəşə məruz qoymaqla düşmənə psixoloji təsir etmək və s. Sadalananların hər birini nəzərə alaraq, əminliklə deyə bilərik ki, artilleriya zərərvurma qabiliyyəti və dağıtma miqyasının böyük olmasına görə döyüşün müqəddəratını həll etmək iqtidarındadır.

Dövr dəyişdikcə artilleriya qurğularının tərkibindəki texnologiyaların da müasirləşməsi ön plana çıxır. Belə ki, artilleriyanın hədəfi təyin etmə cihazı, tuşlama sistemləri və relyefin vəziyyətinin hesablanması işləri və s. nəticəsində daha həlledici çəkiyə malik olur. Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlara əsasən arsenalımıza yeni silahların daxil olması, istifadədə olan silah və texnikaların modernləşdirilməsi prosesinin tərkib hissəsi kimi ordumuzda da mühüm işlərə imza atıldı. Bu proses ordumuzun artilleriya bölmələrinin müasir standartlara uyğun qurulması məsələlərinə həlledici təkan verdi. Məhz uğurla aparılan islahatların təcəssümü idi ki, İkinci Qarabağ müharibəsi zamanı ordumuzun hər bir qoşun növü kimi, artilleriyaçılarımız da dövrün tələblərinə uyğun döyüşaparma üsul və vasitələri ilə qazanılan Böyük Qələbədə pay sahibi oldular.



Bu gün də ordumuzda xidmət edən gənc artilleriyaçılarımız bu ixtisas üzrə bilik və bacarıqlarını artırır, yiyələndiyi peşənin həm nəzəri, həm də praktiki üsullarını dərindən mənimsəyirlər. "N" hərbi hissəsinin divizionunda şəxsi heyət çöl dərsində iştirak edirdi. Dərsə mane olmadan şəxsi heyətin fəaliyyətini izlədik. Onların hər birinin bu qurğunun incəliklərini dərindən mənimsədiyi ilk dəqiqələrdən hiss olunurdu. Sələfləri Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, İsgəndər Aznaurov və digər qəhrəman artilleriyaçılarımızı özlərinə örnək bilən cəsur əsgərlərimiz son ana qədər tapşırıqların icrasında yüksək fiziki və metodiki bacarıqlarını nümayiş etdirə bildilər.

Məşğələ başa çatdıqdan sonra leytenant Vəli Qədirovla söhbətə başladıq. "Cari il üçün keçirilən tədris dövrünün son günlərini yaşayırıq. Divizionumuzun bütün bölmələrində döyüş hazırlığının artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Öz ixtisası üzrə xidmətlərini davam etdirən hərbi qulluqçularımızın intensiv keçirilən məşğələ və təlimlərdə iştirakı onların döyüş qabiliyyətini daha da möhkəmləndirmişdir. Artilleriya ixtisası insandan yüksək ixtisas biliyi, fiziki qabiliyyət tələb edir. Bu ixtisasın incəliklərini yaxşı dərk edən şəxsi heyət keçirilən dərs və məşğələlər zamanı hərbi bilik və nəzəriyyələri dərindən öyrənməyə can atır, bu işdə öz xidmət yoldaşları ilə yüksək əzmkarlıq nümayiş etdirirlər. Biz də öz növbəmizdə çalışırıq ki, əsgərlərimizin təcrübəli artilleriyaçı kimi formalaşması və vəzifələrinin öhdəsindən bacarıqla gəlməsi üçün döyüş vərdişlərini yetərincə mənimsəsinlər", - deyən zabit bizimlə söhbətini bitirdi.

Zabitlə birlikdə heyətin yanına yaxınlaşıb, onlarla tanış olduq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Telman Məhərrəmov döyüş hazırlığının artırılmasında keçirilən dərs və təlimlərin rolunu xüsusi qeyd etdi. "Təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, bölməmiz təcrübəli komandirlərin rəhbərliyi ilə keçirilən məşğələlərdə iştirak edir. Məşğələlərdə öyrənilənlər təlimdə sınaqdan keçirilir.

Təlimlərdə qazanılan uğurlar isə döyüşdə qələbəni şərtləndirən amildir. Necə ki, bir neçə il əvvəl igid əsgərlərimiz döyüş meydanında misilsiz şücaət nümayiş etdirərək qələbəni təmin etdilər. Artilleriyaçılarımız döyüş meydanında düşmənin üzərinə mərmiləri yağdırırdı. Mən o vaxtı hələ hərbi xidmətə çağırılmamışdım. Lakin ürəyim qardaşlarımla, əsgərlərimizlə birgə döyünürdü. 2021-ci ildə əsgər olaraq ilk dəfə qalib ordunun hərbi formasını geyindim. O hissləri sözlərlə ifadə etmək çox çətindi, qürurum yerə-göyə sığmırdı. Xidmətim başa çatandan sonra da orduda qalacağıma qərar verdim. 2023-cü ildə Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror tədbirlərində iştirak etdim. Torpaqlarımızın bütövlüyünün təmin olunmasında az da olsa mənim də payım var. Bu gün öz ixtisasımıza



dair bilik və bacarıqlarımızı gənc artilleriyaçılarımızla bölüşür, onların təcrübəli əsgər olması üçün komandirlərimizlə birlikdə çalışırıq".

Əsgər Rasim Məcidov komandirlərinin dediyi bir fikri səsləndirdi. "Təlimdə qazanılan uğurların arxasında yüksək nəzəri biliklər dayanır. Bunun üçün dərslərdə keçilənləri dərindən öyrənirik ki, təlim meydanında verilən tapşırıqları operativ və dəqiqliklə yerinə yetirə bilək. Keçirilən nəzəri dərslər sinif otaqlarında, praktiki məşğələlər isə komandirlər tərəfindən təyin edilmiş çöl ərazidə keçirilir. İxtisasımızın incəliklərini öyrənirik ki, xidmətimizin təşkilində heç bir maneəmiz olmasın. Vətəni qorumaq bu gün bizim borcumuzdur. Onu layiqincə qoruya bilmək üçün öz vəzifə borclarımızı bilməli, öz ixtisasımızı dərindən mənimsəməliyik".

Gənc artilleriyaçılarımızdan olan əsgər Rəhim Axundovun da fikirlərini qələmə aldıq. "Bu gün ordu sıralarında xidmət edən əsgər olaraq, hərb tariximizdə silinməz izlər qoyan sələflərimizin yolunun davamçılarıyıq. Qəhrəman topçularımızın adını yaşatmaq, onların irsini layiqincə qorumaq üçün təcrübəli komandirlərimizin rəhbərliyi ilə bu gün öz xidmətimizi layiqincə təşkil edirik".

Digər əsgərlər İbrahim Əlipənahlı, Cavidan Əlizadə, Samir Həsənovla da həmsöhbət oldum. Söhbət əsnasında qeyd etdilər ki, bu gün ordu sıralarında xidmət edən hər bir əsgər kimi onları da bir məqsəd birləşdirir - ana Vətən Azərbaycanı layiqincə qorumaq. Onlar Vətənə müqəddəs borclarını ödəyir, üzərlərinə düşən məsuliyyəti dərindən dərk edirlər. İxtisaslarının incəliklərini mənimsəyir, öz döyüş hazırlıqlarını artırırlar. Onların hər biri vəzifənin öhdəsindən layiqincə gəlməyi bacarır. Bu, bizim gələcəyə olan ümidlərimizi daha da artırır. İnanırıq ki, ordumuz gücləndikcə dövlətimiz çiçəklənəcək, xalqımız firavan yaşayacaq, bayrağımız daim zirvələrdə dalğalanacaq. Bu gün kimi!

**Kapitan**
**Fuad CƏFƏROV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Heydər Əliyev irsini öyrənirik*

# Ulu Öndər Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasını arzulayırdı...

***Böyük tarixi şəxsiyyətlər tarixin səmtini xalqının gələcəyinə yönəltməyi bacarır. XX əsrdə belə bir şəxsiyyət ömrünü Azərbaycan üçün yaşayan Heydər Əliyev oldu. Azərbaycançılığı ilə qürurlanan, fəxr edən dövlətçilik fenomeni ilə illəri tarixləşdirən dahi şəxsiyyət həm Azərbaycanın nüfuzunun, həm də Azərbaycançılığın qüdrətinin cəfakeşi oldu. Böyük Britaniyanın Baş naziri Toni Bleyer böyük tarixi şəxsiyyət haqqında səmimiyyətlə demişdi: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər". Dünya Heydər Əliyevi belə tanıyırdı, belə tanıdığı Heydər Əliyevin timsalında Azərbaycanla nüfuzlu bir dövlət kimi hesablaşırdı. Belə olmasaydı, neçə-neçə böyük beynəlxalq iqtisadi müqavilələr imzalanmazdı.***

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olub. 1944-cü ildən təhlükəsizlik orqanları sistemində işləyib. 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri təyin olunub. Ona general-mayor rütbəsi verilib. Leninqrad (indiki Sankt-Peterburq) şəhərində xüsusi ali təhsil alıb. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. 1969-cu il iyul plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. 1982-ci ilin dekabrında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Bunlar böyük tarixi şəxsiyyət Heydər Əliyevin ən böyük (və ən etibarlı) zəmanətinin, siyasi nüfuzunun nəticəsi idi, idarəetmə bacarığı idi, təşkilatçılıq qüdrəti idi, ...

"N" hərbi hissəsində böyük tarixi şəxsiyyət Heydər Əliyevin anım gününə həsr olunmuş disputda əsgərlərin fikirlərini Azərbaycan dövlətinə, Azərbaycan dövlətçiliyinə, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyən ən böyük azərbaycanlıya böyük sevginin ifadəsi bilirik...

Əsgər Arzum Vəliyev deyir ki, orta məktəbdə oxuyanda Azərbaycan tarixini biz də öyrənirdik. Bu tarixin bir hissəsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı idi. Bilirdik ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi təyin olunub. Az müddətdə Azərbaycan iqtisadi baxımdan inkişaf edib, ittifaqda fərqlənən respublikalardan biri olub. Rayonlarda mədəniyyət evləri tikilib, elm, ədəbiyyat, incəsənət xadimlərinin abidələri ucaldılıb. Bakıda, eləcə də ayrı-ayrı rayonlarda böyük sənaye müəssisələri inşa edilib. Müəllimimizin dediklərini xatırlayıram: Bakı Məişət Kondisionerləri zavodu, Radio zavod, Ozon zavodu və digərləri məhz Heydər Əliyevin təşəbbüsü və təkidi ilə inşa edilib.

- Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycan üçün ən böyük xidmətlərindən biri də Bakıda ibtidai hərbi məktəbin açılması olub. Sonuncu sinifdə oxuyanda hərbi hazırlıq müəllimimdən eşitmişdim ki, Moskva bunu istəmirmiş, çox yüksək rütbəli hərb xadimlərinin, nüfuzlu dövət məmurlarının qərəzli rəylərinə görə Moskva məktəbinin açılmasını nəinki ləngitmək, həm də birdəfəlik ləğv etmək istəyirmiş. Ancaq dahi şəxsiyyətin təkidlərini, məntiqli əsaslandırmalarını üstələyən arqument tapa bilməyiб üçün sonda razılıq verib. C.Naxçıvanski adına hərbi məktəb belə yaradılıb, bu məktəbin istər Birinci Qarabağ müharibəsində, istərsə də İkinci Qarabağ müharibəsində onlarla məzunu yüksək hərbi rütbəyə və adlara layiq görülüb, - əsgər Həsən Lələyev belə deyir.

Əsgər Nicat Rəhmansoy da düşüncələrini bildirir:

- Xatırlayıram ki, tarix müəllimimiz demişdi: Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə sonuncu yerlərdə idi. Ulu Öndər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycan inkişaf etmiş sənaye respublikası kimi tanınıb, yüngül sənaye və kənd təsərrüfatı ittifaqda ən inkişaf etmiş iqtisadiyyat şəbəkələrindən biri olub.

Leytenant Fuad Ramazanov əsgərlərin fikirlərini ümumiləşdirir:

- Qəbul imtahanlarına hazırlaşanda müəllimimizin məsləhəti ilə əlavə kitablar da oxuyurdum. Əsasən də, Azərbaycanın 70-ci illər tarixini. Yadımda qalıb ki, hələ Azərbaycan KP MK-nın birinci katibi olanda ermənilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə cəhd göstəribmiş, böyük siyasi xadim ermənilərin bu niyyətini Moskvanın müdafiə etməsinə baxmayaraq, mübariz qətiyyəti ilə dayandırıb. Onda Ermənistanın rəhbərliyi də, SSRİ hökuməti də başa düşüb ki, Heydər Əliyev Azərbaycanın toxunulmazlığı deməkdir.

Əsgər Seyhun Mirzəyevin dedikləri də maraqla dinlənilir:

- 1977-ci ildə SSRİ Konstitusiyası, 1978-ci ildə isə Azərbaycan Konstitusiyası qəbul edilərkən ermənilər müxtəlif mərkəzi orqanlara müraciət edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini yenidən qaldırıblar. Heydər Əliyev Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevlə görüşüb, ermənilərin əsassız iddiasının yolverilməzliyini qəti həll edib.

Əsgərin fikrini leytenant Fuad Ramazanov tamamlayır:

- Onda azərbaycançılıq ermənilik niyyətinə qalib gəlib...

Azərbaycanda milli-azadlıq hərəkatı güclənmişdi. Xalq siyasi rejimin sərt qadağalarından çəkinmədən, hökumətin siyasi təqiblərindən, şərləmələrindən, Sibir xofundan, Lefertovo vahiməsindən çəkinmirdi. Xəlil Rza Ulutürkün bir şeiri xalqın azadlıq, müstəqillik, suverenlik uvertürası idi: Azadlığı zərrə-zərrə istəməyən xalq 1920-ci ilin 28 aprelində qoluna vurulmuş ilhaq zəncirini qırmaq üçün var səsi ilə "Mən varam! Var olacam!" deyirdi. Onda imperiya Bakıya qoşun yeritdi, 1990-cı ilin 19 yanvar gecəsi Bakıda, eləcə də bəzi rayonlarda qırğın törətdi. Yanvarın 21-də Moskvada yaşayan böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısına gəldi, minlər vardı onun ətrafında. Siyasi güdükçülərin yaxın düşə bilmədiyi mitinqdə Heydər Əliyev ciddi çıxış etmişdi, Azərbaycanın haqq mübarizəsinin qələbə ilə nəticələnəcəyinə əminliyini bildirmişdi, qırğın törədənləri ciddi qınamışdı, onların cəzalandırılmasını ciddi tələb etmişdi...



Əsgər Arzum Vəliyev tarixi mizin bir məqamını da xatırladır:

- Azərbaycanda hakimiyyət boşluğu yarananda, separatizm baş qaldıranda, Azərbaycan dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşəndə xalq təkidlə Ulu Öndəri hakimiyyətə çağırıb. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Bu seçim Azərbaycan xalqını qurtuluşa aparan yolun başlanğıcı olub. 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içib. 1998-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Xalqın təkidli çağırışı ilə hakimiyyətə qayıtdıqdan sonra böyük tarixi şəxsiyyət milli qarşıdurmanı aradan qaldırıb, Azərbaycanın dövlətçiliyini labüd iflasdan xilas edib. Qısa müddətdə həyata keçirdiyi böyük islahatlarla ordu quruculuğunun elmi əsasda formalaşmasının əsası yaradılıb, nizami ordu kimi formalaşdırılıb. Yerli özünümüdafiə batalyonları buraxılıb, orduda vahid komandanlıq yaradılıb.

Əsgər Nicat Rəhmansoy deyir ki, Ali Baş Komandan kimi ön xətdə xidmət edən hərbi qulluqçularla görüşən, onlara dəyərli məsləhətlər, tövsiyələr verən dahi şəxsiyyətin bu səfərləri ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını yüksəldirdi. Bu yüksəlişin nəticəsi idi ki, 1994-cü il yanvarın 6-da Ali Baş Komandanın sərkərdəliyi ilə keçirilən Horadiz əməliyyatında Füzuli rayonunun 20 kəndi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilib.

Xatırladıram ki, Ulu Öndər Heydər Əliyev 2001-ci il iyulun 14-də xarici ölkələrin media rəhbərləri ilə görüşündə demişdi: "Mənim həyatımda çox şey olubdur. Ancaq mühüm olanı odur ki, mən bütün bu sınaqlardan, bütün bu çətinliklərdən keçmişəm və yaşayıram. Yəqin ki, hələ çox illər yaşayacağam. Belə taleyi olan insan indi çətin ki, tapılsın. Çünki mən 14 il burada işləmişəm, respublikaya rəhbərlik etmişəm, sonra 5 il Moskvada Siyasi Büronun üzvü, Sovetlər İttifaqı kimi fövqəldövlətin Nazirlər Soveti sədrinin birinci müavini işləmişəm. Sonra isə təqib dövrü olmuş və o, təxminən üç il davam etmişdir. Sürgün dövrü də olmuşdur - mən məcbur olub Moskvadan Bakıya gələndə, mənə burada yaşamağa imkan vermədilər. Mən Vətənimə - doğulduğum, hazırda blokada vəziyyətində olan Naxçıvana getdim. Orada üç il yaşadım. Ondan sonra artıq 8 ildir Bakıda yaşayır və vaxtilə tikdiyim həmin bu binada işləyirəm. İnsanların taleyi müxtəlifdir. Kimsə öz taleyindən razı olur, kimsə narazıdır. Bütün bu çətinliklərə baxmayaraq, mən öz taleyimdən çox razıyam. Çünki qısa ömür, qısa tale o qədər də maraqlı deyildir. Amma insan cürbəcür hadisələrlə qarşılaşanda, hər cür sınaqlardan çıxanda, yəqin ki, həm də daha çox təcrübə toplayır, daha da mətinləşir və bu mənada mən öz taleyimdən çox razıyam. Sabah nə olacağını bilmirəm, amma onu bilirəm ki, bundan sonra daha yaxşı olacaqdır".

Əsgərlər disputda həm də dedilər ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev Vətəni sevirdi, Vətəni sevənləri sevirdi, bu sevgi inam idi, bu inam - vətənpərvərlik. Dahi tarixi şəxsiyyət vətənpərvərliyi - vətənsevərliyi potensial güc adlandırırdı, güc kimi dəyərləndirirdi. Əsgər Seyhun Mirzəyev Ulu Öndərin bir kəlamını xatırladır: "Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir".

Bu kəlamların mahiyyəti də Vətəni sevmək fəlsəfəsidi - vətənpərvərlikdi deyirəm. Əsgərlər məmnunluqla gülümsünür...

İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Zəfərdən sonra işğaldan azad edilmiş Qubadlıda xidmət edən əsgərlərdən biri demişdi ki, babam 1994-cü ildə Horadiz əməliyyatında iştirak edib. Onun dediklərini unutmamışam: Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasını arzulayırdı...

Əsgər Həsən Lələyev deyir ki, Hərbi Akademiyanın yaradılması ordu quruculuğu prosesinin elmi əsaslarla aparılmasını təmin etdi. Sonralar burda təhsil almış zabitlərin hərbi xidməti ordu quruculuğunun uğurla davam etdirilməsində son dərəcədə əhəmiyyətli oldu...

Heydər Əliyev böyük tarixi şəxsiyyət idi. Azərbaycan dövlətini, Azərbaycan dövlətçiliyini labüd iflasdan xilas etdi, onu dünya dövlətlərinin ehtiramı ilə əhatələnməsini təmin etdi. Onun siyasi kursunu uğurla, sədaqətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Böyük tarixi şəxsiyyətin də, xalqın da arzularını gerçəkləşdirdi.

Heydər Əliyev Azərbaycan ərazilərinin işğaldan azad olunmasını, Azərbaycanın dünyəvi, bəşəri dövlət olmasını istəyirdi. Azərbaycan dünyəvi, bəşəri dövlətdir!..

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin 1998-ci il fevralın 18-də Yeni Azərbaycan Partiyasının gənclər birliyi nümayəndələrinin ümumrespublika toplantısında demişdi: "Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir"...

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasını arzulayırdı. Azərbaycanın Silahlı Qüvvələrinin Ali baş Komandanı İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Gerçəkləşən arzular

Baş leytenant Aydın Ələkbərovun uşaqlıq arzusu idi ki, böyüyəndə hərbçi olsun. Bu arzuya, bu istəyə qovuşmaq üçün o, bütün varlığı ilə çalışıb. Gəncə şəhərindəki M.H.Şəhriyar adına 40 saylı tam orta məktəbdə oxuyanda Azərbaycan dili və Ədəbiyyatı fənnini tədris edən müəllimləri şagirdlərdən soruşanda ki, böyüyəndə hansı peşənin sahibi olmaq istəyirsiniz? Aydın hamıdan tez dillənib: “Mən böyüyəndə hərbçi olacağam”, - demişdi.

Aydında bu peşəyə maraq oyadan doğulub boya-başa çatdığı Gəncə şəhərində tez-tez qarşılaşdığı səliqəli hərbi formada səhər xidmət yerinə, axşam isə evə tələsən hərbçilər olmuşdu. Aydın evdə də, dostları ilə söhbət edəndə də hərbi mövzulardan daha çox söz açır, hərbi xidmətin çətinliyindən və özəlliyindən müqayisələr aparmaqdan yorulmurdu. O zaman torpaqlarımızın iyirmi faizi düşmənin işğalı altında idi. Gənc Aydın istəyirdi ki, o hərbçi olanda torpaqlarımız azad edilsin. Baş leytenant Aydın Ələkbərov 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) yüksək balla qəbul olub. 2015-ci ildə Aydın Ələkbərov Ali Hərbi Məktəbi "Motoatıcı" ixtisası üzrə bitirib, "leytenant" hərbi rütbəsində bir il Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müvafiq təkmilləşdirmə kursu keçib. Daha sonra isə motoatıcı taqım komandiri vəzifəsinə təyin olunub.



Kursant illərində Aydın nəzəri biliklərlə yanaşı, praktiki təcrübə toplamağa da çalışırdı. Ona istər taktiki, istər atəş hazırlığı, istərsə də digər fənləri tədris edənlər təcrübəli, Birinci Qarabağ müharibəsində döyüş yolu keçmiş hərbçilər olmuşdu. Aydın müəllimlərinə keçdikləri döyüş yolu ilə bağlı suallar verir, onların döyüş xatirələrini maraqla dinləyirdi. Beləliklə, o, özünü gələcəyə həm də döyüşçü kimi hazırlayırdı.

Baş leytenant Aydın Ələkbərov kursant illərində yiyələndiyi bilik və bacarıqlardan faydalanaraq hazırda hərbi xidmətini uğurla davam etdirir. Onun xidmətindən komandirləri də, zabit yoldaşları da, tabeliyində olan əsgərlər də razıdırlar. Zabit xidmətini elə qurub ki, gün ərzində görəcəyi bütün işləri ardıcıllıqla görür. Tabeliyində olan şəxsi heyətin qayğısına qalmaqla yanaşı, onların döyüş və mənəvi-psixoloji hazırlığının da daim yüksək olmasına çalışır. Onun bu cür xidməti daim başucalığı gətirir. Aydın nümunəvi xidmətlə bağlı bunları dedi:

- Hərbi qulluqçu, ilk növbədə, bilikli olmalı, nizamnamələri mükəmməl bilməlidir. Hərbi qulluqçu bundan sonra xidmətə həvəs göstərməli, hər bir tapşırığı canla-başla yerinə yetirməlidir. Zamanında aldığım təhsil və yiyələndiyim bilik və bacarıqlar xidmətimin düzgün təşkilində kömək olur. Ən böyük arzum zabit olmaq, daha sonra isə xidmət dövründə nümunəvi komandir olmaq olub. Şadam ki, arzularımı gerçəkləşdirə bilmişəm.

Baş leytenant Aydın Ələkbərova gələcək xidmətində uğurlar arzulayaraq ondan ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

## Dayanıqlı rabitənin təşkili hərbi qulluqçunun peşəkarlığından asılıdır



Hərb elminin nəzəriyyəçiləri orduda rabitə xidmətinin əsas üstünlüklərindən danışarkən qeyd edirlər ki, rabitəsiz döyüş yoxdur. Döyüş rabitə ilə idarə olunur. Bu xidmətin əsas şərti davamlı əlaqələrin və dayanıqlı rabitənin yaradılmasıdır. Rabitə xidmətinin uğurla yerinə yetirilməsi o deməkdir ki, döyüş tapşırığı da uğurla nəticələnib. Bütün bunlar şəxsi heyətin vəzifə borcuna məsuliyyətlə yanaşmasının göstəricisidir.

Dayanıqlı rabitənin təşkili yüksək peşəkarlıq, məsuliyyət və təşəbbüskarlıq tələb edir. Bu baxımdan, xidmətin önəmliliyi, gərəkliliyi nəzərə alınaraq, rabitə işinə təcrübəli hərbi qulluqçular cəlb olunur. Hərbi xidmətə yeni gələn əsgərlərə də rabitənin sirləri təcrübəli hərbi qulluqçular tərəfindən öyrədilir. "N" hərbi hissəsində rabitə xidmətinin yüksək səviyyədə təşkil olunduğunun şahidi olduq. Məlumat üçün bildirim ki, hərbi hissə müasir Azərbaycan Ordusunun formalaşmağa başladığı ilk illərdə yaradılan hərbi hissələrdən biri olub və düşmənlə mübarizədə şanlı döyüş yolu keçib.

Öyrəndik ki, hərbi hissənin şəxsi heyəti döyüş hazırlığı planına əsasən, döyüş bacarıqlarının artırılması məqsədilə təlimdədir.

Əsgər Həmid Umarlı rabitə qurğusunu nizamlayır, daxil olan zənglərə təcili cavab verir və əlaqə yaradırdı. Xidmətini böyük həvəslə yerinə yetirən Həmid dedi ki, hər kəs sevdiyi peşədə özünü doğrulda bilər. "Hərbi xidmət dövründə qazandığım uğurlar Vətənə, torpağa sevgidən güc alır. Xidmətimi başa vurmağıma sayılı günlər qalıb. Bu müddətdə qazandığım biliklərə görə komandirlərimə minnətdaram. Hərbi xidmət dövründə rabitəçi peşəsinin, demək olar, bütün incəliklərini öyrəndim, sirlərinə yiyələndim. Dərslərdə qazandığım bilikləri heç bir çətinlik çəkmədən tətbiq edirəm. Qazandığım biliklərə görə komandirim gizir Xanəli Məmmədova minnətdaram. O, bizə təlimdə ixtisasımızın sirlərini sevə-sevə öyrədib".

Rabitəçi ixtisasına dərin marağından söhbət açan əsgər bu işin olduqca vacib tərəflərini bizə fəxrlə söylədi: "Rabitədə daim fasiləsiz əlaqə olmalıdır. Bunun üçün də məsuliyyətlə çalışmalı, bütün diqqətin, fikrin gördüyün işin üzərində cəmlənməlidir. Birinci növbədə, bu tələblər mütləq yerinə yetirilməlidir".

Bölmənin nümunəvi əsgərlərindən biri olan Həmid intizamlı və çalışqandır, verilən tapşırıqları vaxtında yerinə yetirir. O, Oğuz rayonunun Bayan kəndində doğulub, böyüyüb. Xidməti dövründə fəxri fərmanla mükafatlandırılıb valideynlərinə təşəkkür məktubu göndərilib.

Manqa komandiri gizir X.Məmmədov hərbi hissədə rabitə xidmətinin uğurla aparılmasından, bu sahədə avadanlıq və aparatların hər zaman saz, işlək vəziyyətdə olmasından danışdı: "Döyüş hazırlığımızın, bilik və bacarığımızın artırılmasına çalışırıq. İşimizdə heç bir çətinliyimiz yoxdur. Çünki xidmət peşəkar rabitəçilər tərəfindən aparılır. Rabitə sahəsində nəzəriyyəni nə qədər mənimsəsən də, daha çox təcrübəni artırmalısan. Mən də bildiklərimi ordu sıralarına yeni gələn silahdaşlarımıza yorulmadan öyrədirəm. Mütəmadi olaraq rabitə bölüyünün əsgərlərinə həm nəzəri, həm də təcrübi məşğələlər keçirik".

Gizir X.Məmmədov rabitəçi əsgərlərin xidmətindən razılıqla danışdı: "Dayanıqlı rabitənin yaradılması vacib şərtdir. Buna görə də onlar rabitə əlaqəsini daim təmin edir, bu məsuliyyətli işin öhdəsindən bacarıqla gəlirlər".

**Lalə HÜSEYNOVA,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## “Xidmətimiz də Vətən üçündü, ömrümüz də”

Hərbçi peşəsinə maraq da, həvəs də, istək də müxtəlif yaş dövrlərində yaranır. Kimi bu peşəni yeniyetməliyindən sevir, kimi gəncliyində, kimi bir qədər sonra. Hamısının səbəbi olur: mütaliə, televiziya verilişləri, müharibə haqqında xatirələr, təəssüratlar, müəllimlərin tarixin müxtəlif dönəmlərini əhatələyən söhbətləri, ... Bu sevgi xalqın ruhu ilə bağlı olduğuna görə başlanğıcı bəlli, sonu son nəfəs olan sevgi kimi yaşayıb, belə də yaşadılacaq...

Vaqif Kərimli Qax rayonunda anadan olub, orada orta təhsil alıb. İdmana böyük marağı olub. Bu maraq onun ömür yolunun səmtini müəyyənləşdirib: İdmançı olmaq.

İdmanla ciddi məşğul olub. Fiziki imkanları genişləndikcə niyyətinin astanasında olduğunu duyub. Orta məktəbi bitirəndə - 2012-ci ildə bu niyyətini gerçəkləşdirmək məqsədilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olunub. Akademiyada məşq imkanları da genişlənib, məşq yoldaşlarının hazırlıq səviyyəsi də, məşqçilərin peşəkarlığı da. Vaqif idmanın son dərəcə çəldlik, diqqət, yüksək fiziki hazırlıq tələb edən növlərindən biri ilə məşğul olurdu. Qarışıq döyüş növləri üzrə yarışlarda iştirak edirdi, uğurlu nəticələr qazanırdı.

2015-ci ildə Türkiyədə keçirilən Dünya birinciliyində ikinci yeri tutub. "Ani diqqətsizlik məni dünya çempionu adından məhrum elədi. Təəssüfləndim. Təsəllim mükafatlandırma mərasimində dövlət bayrağımızı ucalıqda görməyim oldu. Onda nisbətən aşağı çəki dərəcəsində dünya çempionu adına layiq görülən idmançı hərbi qulluqçu imiş. Onun arenada hərbi salam verməsi mənim düşüncələrimi tərpətdi. Mən hərbçi olmağa onda qərar verdim", - Vaqif belə dedi. Səsində bir inam vardı, bir qətiyyət vardı. Bu inamı da sevgiyə yozdum, qətiyyəti də...



Baş leytenant Vaqif Kərimli bölüyün şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində fiziki hazırlığın əhəmiyyətini xüsusi qeyd edir. Deyir ki, yüksək fiziki hazırlıq, yüksək ruh yüksəkliyi, ikisi birlikdə yüksək döyüş hazırlığı deməkdir. Bölüyümüzün şəxsi heyəti bu amillərə malik olduğuna görə nümunəvi xidmət edir. Asudə vaxtlarda mənim sevdiyim idman növü də karımıza gəlir...

Vaqif İkinci Qarabağ müharibəsi iştirakçısıdı. Xidmət etdiyi bölük Suqovuşan istiqamətində döyüşüb. Suqovuşanın işğaldan azad edilməsi uğrunda döyüşlərdə fərqlənib. Komandirin əmri ilə düşmənin müdafiə səddinin yarılmasında iştirak edib, yaralanmış komandiri döyüşdən fiziki hazırlığı hesabına çıxarda bilib. Sonra yenidən döyüşə qayıdıb. Suqovuşan işğaldan azad ediləndə qürurla döyüşçülərə baxıb, döyüşçülər bu baxışların mətləbini oxuya bilib: Müharibənin son güllələrini də siz atacaqsınız!..

Baş leytenant Vaqif Kərimli Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib...

O, Azərbaycan Ordusunun sonrakı hərbi əməliyyatlarında da iştirak edib, bu əməliyyatlarda da cəsarətlə döyüşüb. Ordumuz bu döyüşlərdə də qələbələr qazandı, tarixi Zəfərin qürurunu son döyüşlər ərəfəsində o da qürurla yaşatdı. 2023-cü il sentyabrın 19-da başlayan antiterror əməliyyatı Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyimizin tam bərpa olunması ilə başa çatdı.

Bölüyün şəxsi heyəti asudə vaxtlarda komandirlərinin döyüş təəssüratlarını maraqla dinləyirlər. Əsgər Elşad Əsədli dedi ki, biz bu söhbətləri Vətən müharibəsinin tarixi kimi dinləyirik. “Komandirimizin döyüş təəssüratlarını İkinci Qarabağ müharibəsinin tarixinin bir zərrəsi bilirik. Tərxis edildikdən sonra bu haqda çağırışçılara da danışacağıq...”

Vaqif onu da dedi ki, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər həm Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdi, həm də dünyanın nizamını dəyişdi. Dünya ictimaiyyəti bir daha dərk etdi ki, "Zülmün topu var, gülləsi var, qələsi varsa, Haqqın da bükülməz qolu, dönməz üzü vardır". Azərbaycan Ordusu qüdrətli ordudur.

"Mən idmançı olanda da əsgər qətiyyəti ilə mübarizə aparırdım. İndi hərbçiyəm. Xidmətim də Vətən üçündü, ömrüm də. Bölüyümüzün əsgərləri döyüş növbətçiliyi aparırsa, mən də döyüş növbətçiliyindəyəm. Qürurlanırıq ki, ucalıqda xidmət edirik...". Bütün zabitlərimiz baş leytenant Vaqif Kərimli kimi düşünür...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## **Ceyhun Bayramov:** Azərbaycan ətraf mühitin mühafizəsi və iqlim dəyişmələri ilə mübarizəyə xüsusi əhəmiyyət verir

Xarici işlər naziri Ceyhun Bayramov Maltanın paytaxtı Valettada Azərbaycan tədqiqatları üzrə III Avropa Konfransında çıxış edib.

AZƏRTAC xəbər verir ki, çıxışı zamanı nazir ölkəmizin COP29-a sədrliyi, ölkəmizin enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar istiqamətləri üzrə təşəbbüsləri, habelə postmünaqişə dövründə bölgədə vəziyyət barədə danışıb.

Azərbaycanın ətraf mühitin mühafizəsi və iqlim dəyişmələri ilə mübarizə istiqamətinə xüsusi əhəmiyyət verdiyi diqqətə çatdırılıb. Eyni zamanda, onlarla təşəbbüs və əhəmiyyətli tədbirlər ilə yanaşı, COP29 çərçivəsində əvvəlki iqlim maliyyəsi hədəfini 3 dəfə üstələyərək 300 milyard dollara çatdıran Bakı Maliyyə Məqsədinin qəbulu, Paris sazişinin əsas hissəsi olan 6-cı maddə üzrə danışıqların yekunlaşdırılması, İtki və Zərər Fondunun növbəti ildən fəaliyyətə başlamasının təmin olunmasının sədrliyimizin ən əhəmiyyətli uğurları sırasında olduğu qeyd edilib.

# "Seçimimlə qürurlanıram"

*Rabitəçi peşəsi maraqlı olduğu qədər, həm də məsuliyyətli peşədir. Dünyada elm, texnika sürətlə inkişaf edir. Bu inkişafın öndə gedən sahələrindən biri də rabitədir. Digər sahələr kimi hərbi sahəni də rabitəsiz təsəvvür etmək mümkün deyil. Çünki sülh və müharibə dövründə bölmələrin qarşılıqlı əlaqəsinin təmin olunmasında, əməliyyatlar zamanı idarəetmənin təşkilində rabitə bölmələrinin rolu böyükdür.*



Mayor Seymur Abaslı təcrübəli hərbçilərdəndir. Sumqayıt şəhərində anadan olsa da, sonradan ailəsi ilə Xızı rayonuna köçüb burada yaşayıblar. Rayonda yerləşən Rafiq İsmayılov adına tam orta məktəbə gedib. O, 2009-cu ildə orta məktəbi bitirib, sənədlərini Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) verib. Həmin il yüksək balla hərbi məktəbə qəbul olunub.

Seymur deyir ki, hərbçi peşəsinə yiyələnmək üçün o, kiminsə təkidilə bu seçimi etməyib. İlk dəfə orta məktəbdə oxuduğu illərdə bu fikirə düşüb. O zaman torpaqlarımız ermənilərin işğalı altında idi. Bu amil də onun hərbçi olmağında mühüm rol oynayıb. Orta məktəbi bitirib müstəqil həyata qədəm qoyanda Seymur özünü gələcəkdə ancaq zabit görüb. Məqsədinə çatmaq üçün o, gərəkli olan bütün mərhələləri uğurla keçib. Hərbi institutda təhsil aldığı birinci il texniki fənlərdən yüksək nəticə əldə etdiyi üçün ona rabitəçi ixtisası təklif olunub. Beləliklə, ikinci kursdan rabitəçi ixtisasının sirlərinə, incəliklərinə həvəslə yiyələnib.

Seymur hərbi institutda təhsil aldığı dönəmdə hərbi nizamnamələrə, digər fənlərə də böyük maraq göstərib. "Leytenant" hərbi rütbəsini alanda xidmətini davam etdirmək üçün "N" hərbi hissəsinə təyinat alıb. Xidmətə başladığı ilk gündən qarşısına məqsəd qoyub ki, həm zabit kimi, həm də rabitəçi kimi özünü doğrultsun. Kursant olduğu illərdə aldığı biliklərdən yararlanaraq xidmətini düzgün təşkil edib. Tabeliyində olan şəxsi heyəti həm öyrədib, həm də onların qayğısına qalıb. Seymur rabitəçi ixtisasına gəlincə deyir: - Hərbçi olmağım da, rabitəçi olmağım da öz istəyimlə olub. Seçimlərimdə yanılmamışam, xidmətimlə də qürurlanıram . Rabitə ixtisası orduda ən gərəkli sahələrdəndir. Bütün komandalar həm döyüş zamanı, həm də dinc dövründə rabitə ilə ötürülür. Bunlar xətli və səyyar rabitə vasitələrdir. Bütün hallarda rabitəçilər bölmələrlə qarşılıqlı əlaqəni qurmaq üçün operativ olmalıdılar.

Mayor Seymur Abaslı hazırda xidmət etdiyi hərbi hissədə yuxarı vəzifəyə təyin olunub. Həm şəxsi intizamını, həm də bilik və bacarıqlarını nəzərə alan komandalıq Seymura böyük etimad göstərib. O da göstərilən etimadı yüksək xidmətləri ilə doğrultmağa çalışır. Hərbi xidmətin yeni mərhələsində ona uğurlar arzulayırıq.

**Bəxtiyar ƏLİYEV,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Məişət*

# Hərbi qulluqçularımız dadlı və yüksək kalorili yeməklərlə qidalanırlar

*Azərbaycan Ordusunun şəxsi heyətinin sağlam və yüksək kalorili yeməklərlə qidalanması hərbi xidmətin vacib komponentlərindən biridir. Bu gün müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantı olan ordumuzun maddi-texniki bazası son illərdə ordu quruculuğu istiqamətində həyata keçirilən islahatlar sayəsində xeyli yaxşılaşdırılıb. Hərbi hissələr ən son texnologiyalara cavab verən müasir avadanlıqlarla təchiz olunub.*





"N" hərbi hissəsində olduğumuz zaman nahar fasiləsində əsgər yeməkxanasında yaradılan şərait və Vətən qoruyucularımızın qidalanması ilə yaxından tanış olmaq imkanı qazandıq. Yeməkxanada səliqə-sahman və təmizlik ürəkaçan idi. Gündəlik yeməklərin hazırlanması ilə məşğul olanların xüsusi geyimdə olması da bu qənaəti bir daha gücləndirdi. Sıra ilə düzülmüş şəxsi heyət bölmə komandirlərinin komandası ilə baş geyimini çıxardıb ardıcıllıqla yeməkxanaya daxil oldu.

Hərbi qulluqçuların qida rasionu ilə tanış olmaq məqsədilə baş aşpaz Dəyanə Qasımovaya yaxınlaşdıq. O, artıq 11 ildir ki, əsgərlərimizin sağlam qidalanması üçün öz əməyini əsirgəmir. "Əvvəllər məişət işlərini əsgərlərimizin özləri edirdilər. Bu da onları müəyyən qədər Vətənə olan övladlıq borcundan - hərbi xidmətdən ayırırdı. Artıq neçə ildir ki, məişət işlərinin görülməsinə, o cümlədən yeməklərin bişirilməsi prosesinə mülki işçilər cəlb olunub. Bu da şəxsi heyətin xidmətdən ayrılmamasına və torpaqlarımızın etibarlı qorunmasına öz töhfəsini verir. Nəticədə, Azərbaycan əsgəri öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir".

- Hərbi qulluqçularımızın qida rasionu mövzusuna da toxunan D.Qasımova bildirdi ki, onlar üçün milli mətbəximizin əksər yeməkləri hazırlanır. "Hərbi qulluqçularımızın düzgün və keyfiyyətli qidalanması ən vacib məsələlərdən biridir. Bunun üçün yeməkxanada hər bir şərait vardır. Hərbi hissəyə gətirilən təzə, keyfiyyətli və yüksək kalorili ərzaq məhsulları soyuducu kameralarda saxlanılır. Normaya uyğun əsgərlərimizin sağlamlığı və gündəlik enerji ehtiyacları nəzərə alınaraq onlar üçün gündə üç dəfə yemək hazırlanır. Menyuda milli mətbəximiz üstünlük təşkil edir".

Növbəti həmsöhbətimiz aşpaz Çimnaz Mehdiyeva oldu. "Hərbi qulluqçularımızın hər birini doğma övladımız, qardaşımız bilirik. Əsgərlərimiz üçün daha da dadlı, və keyfiyyətli yeməklər hazırlayırıq ki, onlar sağlam, gümrah, möhkəm olsunlar. Çünki torpaqlarımızı, doğma Vətənimizi düşməndən qoruyurlar. Hazırladığımız yeməkləri onların iştahla yediyini görəndə hər birimizi sevinirik. Çalışırıq ki, əsgər balalarımız dadlı ev yeməklərinin həsrətini çəkməsinlər".



Ç.Mehdiyeva dedi ki, yeməkxanada, həmçinin səliqə-sahman, gigiyenik qaydalara və təhlükəsizliyə də xüsusi önəm verilir. "Sağlam əsgər güclü ordu deməkdir. Gecə-gündüz, isti-soyuq demədən doğma yurdumuzun keşiyini çəkən əsgərlərimizə yeməklərin təmiz, sağlam və təhlükəsiz şəkildə hazırlanması, eləcə də təqdim olunması üçün əlimizdən gələni əsirgəmirik".

Hazırlanan yeməklərin keyfiyyətini öyrənmək məqsədilə əsgərlərimizə yaxınlaşdıq. Onlar hazırlanan təamların keyfiyyətindən, aşpazların bacarığından razılıqlarını bildirdilər və ev yeməklərindən fərqlənmədiyini qeyd etdilər. "Burada bizə dadlı-ləzzətli xörəklər hazırlanır, milli çeşiddə, yüksək keyfiyyətli ərzaqlardan bişirilən yeməklər, mövsümə uyğun salat və şirələr ürəyimizcədir. Yeməkxanamızın təmizliyi ürəkaçandır. Yaradılan bu şərait bizə əlavə ruh yüksəkliyi aşılayır. Bizim də öhdəmizə bir iş düşür - Vətənə layiqincə xidmət etmək. Biz də üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirmək, nümunəvi xidmət etmək və doğma torpaqlarımızı göz bəbəyi kimi qorumağa hər an hazırıq".

**Baş leytenant**
**Elçin İMANOV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Nizam-intizam sıradan başlayır

*Hər bir əsgərin mükəmməl şəkildə sıra hazırlığını mənimsəməsi vacib şərtdir. Əsgər hərbi xidmətə birinci olaraq sıra hazırlığını nizamnaməyə uyğun nəzəri bilikləri öyrənməklə və öyrəndiklərini təcrübədə tətbiq etməklə başlayır. Çünki nizam-intizam sıradan başlayır. Əsgərin üzərində mətin addımlarla addımladığı torpağa bağlılığı Vətənə sevgisindən güc alır. Bəli, əsgər sırada mətin addımlarla irəliləməklə döyüş və mənəvi-psixoloji hazırlıqlarını artırır.*





"N" hərbi hissəsində əsgərlərimizin əzmli addım səslərini eşidirik. Onlar növbəti sıra hazırlığına hazırlaşırlar. Növbəti sıra hazırlığının fənn və üsullarını, nəzəri-praktiki elementlərini hərəkətlərində yerinə yetirirlər. Əsgərlər keçirilən dərsin şərtlərini qaydalara uyğun mənimsəyiblər. Komandaların cəld yerinə yetirilməsi bunu bir daha təsdiqləyir. Nizamlı şəkildə sağa-sola, geriyə dönmə hərəkətləri təcrübədə tətbiq olunur. Bəli, belə hazırlıqlı, vətənsevər, hünərli Azərbaycan əsgərinin sayəsində Ali Baş Komandanın rəhbərliyi ilə 30 ilə yaxın müddətdə düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu, respublikamızın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi.

Ümumilikdə, müşahidələrimiz bir daha onu göstərdi ki, əsgərlərimiz bütün hazırlıqlarını, o cümlədən də sıra hazırlığını - müxtəlif məzmundakı dərslərini çox səmərəli keçirirlər. Hazırlanmış əyani vəsaitlərdən, tədris imkanlarından yetərincə bəhrələnirlər. Keçirilən dərs müddətində də sıra hazırlığı ilə bağlı bütün mövzuları incəliklərinə qədər hərtərəfli öyrənirlər. Buradan da aydın olur ki, əsas məqsəd şəxsi heyətə döyüş vərdişlərini aşılamaq və onların mənəvi-psixoloji ruh yüksəkliyini artırmaqdır. Sıradan başlanan intizam əsgərin hərbi xidmət dövründə qazandığı ən böyük nailiyyətidir.

Öyrənirik ki, hər dəfə sıra hazırlığına başlamazdan əvvəl vaxtilə ordu sıralarında mətin addımlarla irəliləmiş, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş yüzlərlə Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Hər dəfə bir şəhidimizin keçdiyi şanlı döyüş yolu haqqında qısa məlumat verilir. Şəxsi heyətə bu gün əzmlə dayandıqları sıranın müqəddəsliyi aşılanır.

Şəxsi heyət sıra hazırlığı dərslərində silahsız və silahla sıra hərəkətləri və yerişini, bölmə və hissələrin piyada, eyni zamanda, nəqliyyat vasitələrində sıralarını, əsgəri salamlaşma qaydalarını, sıra baxışının keçirilməsini, hərbi hissənin Döyüş Bayrağının sırada vəziyyətini, onun çıxarılmasını və qaytarılmasını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, habelə yerdəyişmə qaydaları haqqında biliklər öyrənirlər.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Kənan Əkbərli bildirdi ki, hazırda izlədiyimiz dərsin mövzusu əsgəri salamlaşma, rəisə yaxınlaşma, hərəkətdə dönmələr və digər sıra elementlərinin praktik olaraq yerinə yetirilməsidir. Əsgərlər verilən tapşırıqları, qaydaları dərindən mənimsəyərək, təcrübədə tətbiqini mükəmməl şəkildə bacardılar.

Müşahidələrimiz deyilənləri, doğrudan da təsdiqlədi. Sırada dayanan əsgərlər verilən tapşırıqların öhdəsindən bacarıqla gəldilər.

Əsgərlər Səbuhi Şıxıyev, Hikmət Allahverdizadə, Elşad Niftizadə, Elvin Qasımov və başqaları ilə söhbətimiz zamanı əmin olduq ki, onların hər biri Vətən, torpaq sevdalısı Mübarizlərdir. Qəhrəman Mübarizin şanlı həyat və döyüş yolunu özlərinə örnək seçənlərdir. Müzəffər Azərbaycan Ordusunun sıralarında xidmət keçməkdən qürurlanan və qalibiyyət bayrağını - üçrəngli Dövlət Bayrağını başı üzərində dalğalandıran Vətənin cəsur əsgərləridirlər.

**Lalə HÜSEYNOVA,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**



*Fiziki hazırlıq*

# Fiziki güc həm də yüksək döyüş ovqatıdı

*Günün ikinci yarısı idi. Hərbi hissənin idman şəhərciyindəki canlanma xoş ovqat yaradırdı. Əsgərlər hava şəraitinə uyğun geyimdə idman alətlərində; turnik, paralel qollar, press stolu və başqa qurğularda idman normativlərini yerinə yetirirdilər. Onlar məşğələ rəhbəri gizir Nurlan Məmmədovun nəzarətində həvəslə və bacarıqla idman hərəkətlərini icra edirdilər.*

Gizir N.Məmmədov dedi ki, şəxsi heyət isinmə-gərilmə hərəkətlərini icra etdikdən sonra idman alətlərində bir sıra çalışmaları yerinə yetirir. “Əsgərlər müntəzəm olaraq turnikdə dartınma və dayaqda aşma, paralel qollarda qalxıb-enmə, pres stolunda bədəni irəli-geri aparmaqla fiziki hazırlıqlarını artırırlar”.

Hər bir əsgərin yüksək fiziki hazırlığı həm də onun döyüş hazırlığının artırılması deməkdir. Yüksək fiziki göstəricilərə malik olmayan əsgərin də döyüş bacarıqları söz yox ki, aşağı olacaqdır. Turnikdə dartınaraq dayaqda aşma hərəkətlərini yerinə yetirən əsgərlər Nurlan Məmmədsalahov, Vüsal Qasımov, Elmir Məmmədov, Laçın Əlizadə, Fuad Talıbov yüksək bacarıq nümayiş etdirirdilər.

Gizir N.Məmmədov idmana cəlb olunan əsgərlərə alətlərdə çalışmaları düzgün yerinə yetirməyi öyrədirdi. O dedi ki, hərbi qulluqçu daim idmanla məşğul olmalıdır. “Günün nizam qaydalarına əsasən, təyin olunmuş saatlarda şəxsi heyətə idman şəhərciyində fiziki hazırlıq məşğələsi keçirilir. Bundan əlavə, bazar günləri kütləvi idman tədbirlərimiz olur. Bu fəaliyyətlərin hər biri şəxsi heyətin sağlamlığına, həmçinin döyüş hazırlığının artırılmasına müsbət təsir göstərir”.

Nurlan həm də İkinci Qarabağ müharibəsi iştirakçısıdı. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. O qeyd etdi ki, fiziki cəhətdən möhkəm olan döyüşçülər savaş meydanında çevik hərəkətlərlə düşmən üzərinə irəliləyərək uğur qazanıblar. Bu səbəbdən də hər bir əsgərin üzərinə düşən başlıca vəzifə fiziki bacarıqlarını daha da artırmaqdır.

Əsgərlərdən Şahin Mikayılzadə, Ağaqulu Məmmədli, Abbas Dadaşov, İlqar Məhərrəmli və başqaları idman alətlərində normativləri layiqincə yerinə yetirdilər. Ağaqulu Azərbaycan Dillər Universitetini bitirib. Həm orta məktəbdə, həm də universitetdə təhsil aldığı illərdə idmana həvəs göstərib. Turnikdə bir sıra idman çalışmalarını çətinlik çəkmədən yerinə yetirə bilir. Abbas isə peşəkar idmançıdı. Cüdo idman növü üzrə 73 kq çəkidə respublika ikincisi olduğunu dedi. Abbas Sumqayıt cüdo məktəbinin məzunudur. Əsgər yoldaşlarına idmanın insan həyatındakı rolundan danışmaqla onlarda fiziki hazırlığa daha çox maraq oyadır.



Əsgərlərin idman şəhərciyində yerinə yetirdiyi çalışmalar onların həm sağlamlıqlarının, həm də döyüş vərdişlərinin artırılmasında əhəmiyyətli rolu var. Bu səbəbdən də onlar fiziki hazırlıqlarının daha da artırılması üçün həvəs göstərirlər.

**Bəxtiyar ƏLİYEV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Yeni nəşrlər*

# "44 Gün - Tarixi Zəfər" kitabının III cildi təqdim olunub








Respublika Veteranlar Təşkilatında "44 Gün - Tarixi Zəfər" kitabının III cildinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xatirə Kitabı Redaksiyası tərəfindən nəşr edilən kitabın təqdimat mərasimində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Çıxış edən Respublika Veteranlar Təşkilatının sədri Cəlil Xəlilov 44 günlük Vətən müharibəsindən danışıb, hərbçilərimizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə göstərdiyi qəhrəmanlıqlara diqqət çəkib. Qeyd edib ki, illər, əsrlər keçsə də, şəhidlərimizin, müharibə iştirakçılarının bu göstərdiyi qəhrəmanlıqlar hər zaman ehtiram hissi ilə xatırlanacaq və yad ediləcək. Təşkilat sədri "44 Gün - Tarixi Zəfər" kitabının III cildinin də bundan əvvəlki cildlər kimi mükəmməl şəkildə hazırlandığını bildirib.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Respublikası Xatirə Kitabı Redaksiyasının baş direktoru Nəzakət Məmmədova kitabın ərsəyə gəlməsi üçün görülən işlərdən danışıb, şəhidlərimizin qəhrəmanlığının bundan sonra da tədqiqat və təbliğat mövzusu olacağını deyib.

Tədbirdə çıxış edən Mətbuat Şurasının İdarə Heyətinin üzvü Aydın Quliyev "44 Gün - Tarixi Zəfər" kitabının əhəmiyyətindən danışıb, kitabın nəşrini hərb tariximizin əbədiləşdirilməsi baxımından atılan mühüm addım kimi dəyərləndirib.

"44 Gün - Tarixi Zəfər" kitabında şəhidlər barədə ensiklopedik məlumat verilib.

Tədbirin sonunda "Vətən daşı" sənədli filmi nümayiş olunub, xatirə şəkli çəkilib.

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyədə terrorçuluqda şübhəli bilinən 147 nəfər saxlanılıb



Türkiyə Daxili İşlər Nazirliyi terror təşkilatlarında iştirak edən şəxslərin saxlanılması istiqamətində növbəti genişmiqyaslı əməliyyat keçirib.

İstanbul, Diyarbəkir və Antalya da daxil olmaqla Türkiyənin 30 vilayətində PKK terrorçuları ilə əlaqədə şübhəli bilinən 147 nəfər saxlanılıb.

Daxili işlər naziri Ali Yerlikaya qeyd edib ki, "Gürz-28" adlanan əməliyyat prokurorluq orqanları tərəfindən koordinasiya edilib.

Onun sözlərinə görə, axtarışlar zamanı qanunsuz atıcı silahlar, narkotik maddələr və qadağan olunmuş ədəbiyyat aşkar edilib.

Nazir daha əvvəl məlumat vermişdi ki, kod adı "Gürz" olan əməliyyatlar çərçivəsində ilin əvvəlindən ölkə ərazisində terrorçuların 709 sığınacaq və anbarı müəyyən olunaraq məhv edilib, sığınacaq tapa biləcəkləri onlarla mağaranın girişləri dağıdılıb.

Əməliyyatlara jandarm qüvvələri cəlb edilir, hücumda PUA və helikopterlərdən istifadə olunur.

### Qazaxıstan Hərbi Dəniz Qüvvələri genişmiqyaslı döyüş hazırlığı yoxlanışı aparıb



Yeni təlim dövrünün başlaması ilə Qazaxıstan Hərbi Dəniz Qüvvələri genişmiqyaslı döyüş hazırlığı yoxlanışından keçir.

Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, Aktau qarnizonunda dəniz piyadaları və digər birləşmələr də daxil olmaqla 1500-ə yaxın hərbi qulluqçu həyəcan siqnalı ilə qaldırılaraq, ən yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib.

Gəmilərin bazasında döyüş hazırlığının müxtəlif aspektləri, o cümlədən təxribat əleyhinə tədbirlər və taktiki əməliyyatlar yoxlanılıb.

Gəminin ekipajları döyüşə yaxın şəraitdə səmərəli fəaliyyət göstərmək bacarıqlarını nümayiş etdirərək, Xəzər dənizinə açılıblar. Dəniz piyadaları desant-hücum batalyonunun hərbçiləri yüksək hazırlıq nəticələri göstərib.

Hərbi Dəniz birləşmələrinin qüvvələri və aktivləri geniş ssenarilər çərçivəsində yoxlamadan keçirilir. Bu, şəxsi heyətin fövqəladə hallarda fəaliyyət göstərilməsi ilə bağlı vərdiş və bacarıqlarının təkmilləşdirilməsinə yönəlib.

### Çin ABŞ-ın 13 şirkətinə Tayvana silah tədarükünə görə sanksiya tətbiq edib



Çin ABŞ-ın hərbi sənaye kompleksinə aid 13 şirkətə və həmin müəssisələrin altı rəhbərinə Tayvana silah tədarük etdikləri üçün sanksiya tətbiq edib.

ÇXR Xarici İşlər Nazirliyinin bəyanatında məhdudiyyətlərin dekabrın 5-dən qüvvəyə mindiyi deyilir.

Məlumata görə, sanksiyaya məruz qalan hüquqi və fiziki şəxslərin aktivləri dondurulub və onlarla əməkdaşlıq qadağan olunub.

Çinin xarici siyasət idarəsi, eyni zamanda, Vaşinqtonu ÇXR-in daxili işlərinə ciddi müdaxilədə, həmçinin ölkənin suverenliyinə və ərazi bütövlüyünə qəsddə ittiham edib.

Oktyabr ayında ABŞ Dövlət Departamenti NASAMS hava hücumundan müdafiə sistemləri və radar stansiyalarının Tayvana mümkün tədarükü ilə bağlı 2 milyard dollarlıq müqaviləni təsdiqləyib.

ÇXR sədri Si Cinpin noyabrın 17-də Peruda ABŞ Prezidenti Cozef Baydenlə görüşündə Birləşmiş Ştatları Tayvan boğazında sülhü qorumaq üçün ehtiyatlı olmağa çağırıb. Çin lideri Vaşinqtondan Çinin sülh yolu ilə yenidən birləşməsini dəstəkləməyi tələb edib.

Tayvan ətrafında vəziyyət 2022-ci il avqustun əvvəlində ABŞ Nümayəndələr Palatasının ozamankı spikeri Nensi Pelosinin adaya səfərindən sonra xeyli gərginləşib. Adanı özünün əyalətlərindən biri hesab edən Çin bu addımı ABŞ-ın Tayvan separatizminə dəstəyi kimi qiymətləndirib.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Çexiyada Ümummilli Lider Heydər Əliyevin 101 illiyinə həsr olunmuş futbol turniri keçirilib



Çexiyanın Praqa şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Land of Fire" cəmiyyəti və Çexiya Futbol Federasiyasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 101 illiyinə həsr olunmuş Xarıbülbül Beynəlxalq Futbol Turniri keçirilib.

Turnirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Ukrayna, Moldova, Çexiya və digər Avropa ölkələrini təmsil edən komandalar yarışıblar.

Finalda azərbaycanlılardan ibarət "Charles United" və ukraynalılardan ibarət "Dubove" komandası üz-üzə gəlib. Hər iki komandanın oyunçuları "Biz müharibə yox, sülh istəyirik" şüarı yazılan lövhələrlə oyun meydançasına daxil olublar.

Həlledici qarşılaşma "Dubove" komandasının qələbəsi ilə başa çatıb. Qalib komandaya mükafat təqdim olunub.

### Azərbaycan idmançısı pauerliftinq üzrə dünya çempionatında qızıl medal qazanıb



Rusiyanın paytaxtı Moskva şəhərində pauerliftinqin AWPC/WPC/WPSO-A/WPSO versiyası üzrə dünya çempionatı keçirilib. 560-a yaxın idmançının mübarizə apardığı yarışda Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Belarus, Macarıstan, Çexiya, Rusiya və digər ölkələrdən atletlər birincilik uğrunda mübarizə aparıblar.

Pauerliftinq üzrə Azərbaycan millisinin üzvü Zaur Cəfərov "bench press" hərəkətində 320 kiloqram nəticə ilə 7-ci dəfə dünya çempionu olub. O, həm də 3 cü dəfə "Elitar idmançı" tituluna yiyələnib.

İdmançı bu il iyunun 9-14-də Finlandiyanın Salo şəhərində AWPC/WPC versiyası üzrə keçirilmiş Avropa çempionatında da qızıl medal qazanmışdı. O, AWPC versiyası üzrə "bench-press" hərəkətində 263 kiloqram nəticə ilə 7-ci dəfə bu titula sahib çıxmışdı. Həmçinin yeni Avropa rekorduna imza ataraq, yarışın mütləq çempionu adına layiq görülmüşdü.

### Azərbaycanın Paralimpiya çempionu dünyanın ən yaxşı parataekvondoçusu seçilib



Azərbaycanın Paralimpiya çempionu İmaməddin Xəlilov Dünya Taekvondo Federasiyası (WT) tərəfindən 2024-cü ilin ən yaxşı kişi parataekvondoçusu adına layiq görülüb.

Bu il ərzində iştirak etdiyi bütün turnirlərdə qızıl medal qazanan idmançı Paralimpiya, dünya və Avropa çempionu titullarına yiyələnib. O, həmçinin dünya reytinqinin hazırkı lideridir.

Parataekvondoçuya mükafat Honkonqda keçirilən qala gecəsində təqdim olunub.

İmaməddin Xəlilov bu ada Dünya Taekvondo Federasiyasının Texniki Komissiyasının yekdil rəyi əsasında layiq görülüb.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Fuad CƏFƏROV | Lisenziya № 361<br>Sifariş № 756<br>Nüsxə 4650 |